# ƏDƏBİYYATDA RƏQƏMSAL TƏKAMÜL: SÜNİ İNTELLEKTİN POETİK KODLARI

*(Əvvəli ötən sayımızda)*

Süni intellekt oxucuya ünvanlanmış mətnlər yaradaraq, onun seçimlərinə və tələblərinə cavab verir, məlumatları paralel şəkildə təqdim edir. Bu nöqteyi-nəzərdən oxucu ədəbiyyatın zəngin və şaxələnmiş bir elm olduğunu daha çox dərk edir.

Virtual dünya ədəbiyyatın fəlsəfi-sosial aspektlərinə də təsir edir. Rəqəmsal və dijital humanizm anlayışı meydana gəlir. Rəqəmsal humanizm texnoloji vasitələrin insan təcrübəsinin təkamülünə əsaslanır. Dijital humanizmin məqsədi oxucuları insan-maşın kəsişməsində yeni mənalar axtarmağa imkan yaratmaq, insani dəyərləri mühafizə etməkdir. Burada etik və mənəvi məqamlar nəzərə alınır, insan təcrübəsi texnologiya ilə inteqrasiya edir. Rəqəmsal humanizm insanın inkişafına və texnologiyadan praqmatik şəkildə istifadəsinə, virtual alətlərin mənfi təsirlərini minimuma endirməyə kömək edir. Dijital humanizm rəqəmsal ədəbiyyatın fəlsəfi aspektlərini təşkil edir. Məsələn, Yuval Noah Hararinin "Sapiens: Bəşəriyyətin qısa tarixi" kitabı rəqəmsal humanizmin əsas prinsiplərini ifadə edir. Nikolas Karrın "Dayazlar: internet beynimizə nə edir?" kitabı da dijital humanizmi araşdırır. Karrın fikrincə, onlayn oxumaq çap olunmuş kitabı oxumaqdan daha az qavrayışa səbəb olur, yəni oxucu mətni kitab şəklində canlı oxuyanda daha çox dərk edir.

**Nəticə**

Rəqəmsal ədəbi alətlərdən istifadə, elektron ədəbiyyatın inkişafı, sosial mediada nəzm və nəsrin fərqli nümunələrinin yayılması, podkast və audiokitabların yaranması süni intellektin müsbət mənada təsir gücünü ifadə edir. Həmçinin, rəqəmsal humanizmin inkişafı da maraqlı yenilikdir. Maraqlıdır, orijinal yazarlığa texnologiyanın nüfuz etməsi, insan və maşın düşüncəsinin sintezi, süni müəllif anlayışı və etik-əxlaqi prinsiplərin pozulması ədəbiyyatın inkişafına nə dərəcədə xidmət edir? Texnologiyanın yaratdığı mətnlər nə dərəcədə etikdir? Əsər əslində kimə məxsusdur və müəllif hüquqları necə qorunub saxlanılacaq? Əsər ədəbi dünyada necə qəbul olunur və "qeyri-qanuni" mətn hesab olunmurmu? Bəs həmin əsərlərin sonrakı taleyi? İnsanın və maşının ədəbi münasibətləri gələcəkdə hansı çərçivədə inkişaf edəcək? Bu məsələlər artıq fəlsəfi-hüquqi müstəvidə dəyərləndirilməlidir.

Ədəbiyyatın rəqəmsal dönüşümü ədəbiyyatın təbiətinin sorğulanmasına yol açır. Bu hadisəni atasız dünyaya gələn övladlarla kobud formada da olsa müqayisə etmək olar. Bədii mətnlərin taleyi atasız və bioloji qanunlardan kənar üsullarla doğulan uşaqların taleyindən çox da fərqlənmir. Burada da ədəbi qanunlardan kənar bir "məhsul" yaranır. Bəs "ədəbi pasport"da müəllifin adının önündə kim qeyd olunacaq? Fikrimizcə, süni intellektin ədəbiyyata təsirinin "qırmızı xətt"i, çərçivəsi olmalıdır. Əks halda, yazıçının funksiyası, rolu tamamilə sıradan çıxacaq, insan amili getdikcə məhdudlaşacaq. Beləliklə, insan əməyinə ehtiyac duyulmayacaq.

Digər bir məsələ odur ki, maşının "ürəyi" yoxdur, sadəcə mətndə poetik "izi" var. Yazıçının qələminin mürəkkəbi onun ürəyinin qanıdır, onun göz yaşlarından axıb gələn mürəkkəbdir. Hiss və duyğulara yer verilməyən bədii mətn oxucunun həyatına nə dərəcədə dəyər qatacaq, onu necə tərbiyələndirəcək? Bu kimi suallar hələ də açıq qalır.

***Sərvanə DAĞTUMAS,***
***ədəbiyyatşünas***